# BİR MİLLƏT- İKİ DÖVLƏT

**Türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin əziz xatirəsinə həsr olunur**

İki böyük şəxsiyyət xalqına dayaq oldu,
Gündüzlər dincəlmədi, gecələr oyaq oldu,
Bayraqları Ay-ulduz, üçrəngli bayraq oldu,
Qəhrəmanlıq hayqırır döyüşkən Türk əsgəri,
Öiməz Türk dünyasının Atatürkü-Heydəri!

***

İki dahi zəkanın oxşar ömür yolları,
Dahiləri qorxutmaz zaman qalmaqalları,
Vətənə, xalqa xidmət müqəddəs amalları,
Dahilərin ömrünün yox ölçüsü, qədəri,
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!

* * *

Bir xətt üstə yerləşir, Atatürk-Heydər yolu,
Bir məqsədlə birləşir, Atatürk-Heydər yolu,
Arazlaşır, Kürləşir Atatürk-Heydər yolu,
Heç kim Türkü yolundan döndərə bilməz geri,
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!

* * *

Vuruşub xalqla birgə zülmə qılınc çaldılar,
Əsarətə yox deyib, azadlığı aldılar,
Ölməzliyə qovuşub ürəklərdə qaldılar,
UcaTanrı uzaq et, Türkdən qəza-qədəri,
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!

* * *

Əzəmətli körpüdür əsrin Bakı- Ceyhanı,
İşığa qərq edəcək Şərqli - Qərbli cahanı,
Körpünü əyə bilməz, şər qüvvələr tufanı,
Var Vətənin, var xalqın uzaqgörən lideri,
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!

***

Ucal Türkün bayrağı, ucal uca zirvəyə,
Arzular qanad açır, ümid dönür gerçəyə,
Əbədi yaşayacaq Azərbaycan-Türkiyə.
Bir millət – iki dövlət, var millətin öndəri.
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!
Ölməz Türk dünyasının Atatürkü-Heydəri!

***Oqtay Zəngilanlı***
***Savalan. – 2007. – 11-13 dekabr. – S.2.***